## "Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə

***Azərbaycan Respublikasının Qanunu***

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:
I. "Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, N 6, maddə 382) aşağıdakı dəyişikliklər edilsin:
1. Qanunun adında, preambulasında, II fəslin adında, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı, 7-ci, 8-ci, 9-cu, 10-cu, 11-ci, 14-cü və 15-ci maddələrində "Qırmızı Xaç" və "Qırmızı Aypara" sözləri müvafiq olaraq, "Qızıl Xaç" və "Qızıl Aypara" sözləri ilə əvəz edilsin.
2. 1-ci maddədə "qırmızı xaçın" və "qırmızı ayparanın" sözləri müvafiq olaraq "qızıl xaçın" və "qızıl ayparanın" sözləri ilə əvəz edilsin.
II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 may 2007-ci il